Xalq qəzeti 2021.- 19 fevral.- S.5.

# “Baku” jurnalı: Xoşbəxtliyin Bakı formulu və daha nələr...




***Xoşbəxt olmaq üçün cəmi üç şey lazımdır, amma onlar mütənasib olmalıdır: iş, sevgi və ünsiyyət. “Baku” jurnalının baş redaktoru Leyla Əliyeva bu populyar nəşrin son nömrəsində dərc edilmiş məqaləsində bizim böyük həmvətənimiz, Nobel mükafatı laureatı Lev Landaunun çıxardığı “xoşbəxtlik formulu” barədə söhbət açır.***

Leyla Əliyeva yazır: “Xoşbəxtliyin bu formulu olduqca bakısayağıdır. Müəllif Azərbaycan paytaxtının özünəməxsus ab-havasının sirlərini açaraq göstərir ki, Bakı sakinləri həmişə tolerantlıq, ənənələrə qayğıkeş münasibət, əməksevərlik və əlbəttə, bənzəri olmayan qonaqpərvərlik kimi xüsusiyyətlərlə fərqləniblər.

AZƏRTAC xəbər verir ki, “Baku” jurnalı ənənələrə sadiq qalaraq həm konkret hadisələr barədə informasiya, həm də Azərbaycanın mədəniyyəti, onun tarixi barədə məqalələr, ölkəmizi məşhurlaşdıran tanınmış şəxsiyyətlərlə müsahibələr dərc edir. “Baku” jurnalının 2021-ci il yanvar-fevral nömrəsini, həqiqətən, tarixi nömrə adlandırmaq olar. Çünki jurnalın bu nömrəsi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızı erməni işğalından azad etməsi münasibətilə keçən il dekabr ayında Bakıda keçirilmiş Zəfər paradı barədə reportajla açılır. Azərbaycan xalqı bu günü illər boyu gözləyirdi. Müzəffər Azərbaycan Ordusunun paytaxtın Azadlıq meydanında həmin paradda qürurla addımlayan əsgərlərinin, səmada üçrəngli Azərbaycan bayrağının əksini yaradan qırıcı təyyarələrin, Vətən müharibəsi qəhrəmanlarını bayraqlarla qarşılayan Bakı sakinlərinin fotolarında bizim üçün unudulmaz məqamlar əks etdirir.

Dünya şöhrətli fotoqraf Reza Deqati ilə söhbət “Əlvida, silah” başlığı altında dərc edilib. Qarabağın öz qanuni sahibinə qaytarılmasını, viran edilmiş binaları, ermənilər tərəfindən təhqir olunmuş məbədləri tarix üçün sənədləşdirmiş öz arzularını bölüşərək deyib: “İnanıram ki, Azərbaycan yaranmış şansdan istifadə edəcək və Qafqazda sülhə nail olacaq. Mən müxtəlif insanlarla, o cümlədən yüksək vəzifəli şəxslərlə söhbət etmişəm, onlar Qarabağı yer üzünün cənnətinə çevirməyə hazırlaşırlar. Bu həm də mənim arzumdur, müharibələri və dağıntıları öz gözü ilə görmüş hər kəsin arzusudur”.

Reza Deqatinin müsahibəsi onun işğaldan azad edilmiş Azərbaycan torpaqlarına səfərlərinin gedişində çəkilmiş çoxsaylı fotoşəkillərlə illüstrasiya edilib.

“Baku” jurnalının bu nömrəsində “Müsahibə” rubrikasının qonağı TASS Agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusman olub. M.Qusman 2020-ci ildə iki yubileyi – anadan olmasının 70 illiyini və məşhur “Hakimiyyət formulu” verilişinin 20 illiyini qeyd edib. Tanınmış jurnalist bu verilişin necə yaranması, verilişin qəhrəmanları olmuş məşhur şəxsiyyətlər, pandemiya şəraitində jurnalist işinin çətinlikləri barədə söhbət açır və Bakıya sevgisini etiraf edir: “Planetimizdə heç bir yeri Bakı ilə müqayisə etmək olmaz”.

Oxucular “Azərbaycan markaları” adlı xüsusi layihədən, İsmayıllı rayonunun İvanovka kəndində yaşayan molokanlar haqqında məqalədən çoxlu maraqlı faktlar öyrənəcək. Kulinariya həvəskarları isə “Yemək. Sirlər” rubrikasında “albuxara” gavalı qurusu barədə məlumat alacaq, ondan istifadə olunan Azərbaycan yeməklərinin reseptləri ilə tanış olacaqlar.